# Üzeyir bəy Hacıbəyli Beynəlxalq Musiqi Festivalı musiqi sənətimizin inkişafının parlaq təcəssümüdür

**Azərbaycanda musiqi mədəniyyətimizin inkişafı və təbliği baxımından diqqətəlayiq olan daha bir tədbirin - Üzeyir bəy Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalının başlamasına sayılı günlər qalıb. Belə ki, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Milli Musiqi Günü münasibətilə sentyabrın 18-dən 28-dək Üzeyir bəy Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı keçiriləcək.**




Ölkəmizin mədəni həyatında mühüm hadisə olan festivalda dünyanın bir çox ölkələrindən tanınmış sənətçilər iştirak edəcək. Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Elmi-tədqiqat laboratoriyasının elmi işçisi Fidan Nəsirova-Əhmədovanın sözlərinə görə, 2009-cu ildən keçirilən festivalın əhatə dairəsi ötən müddət ərzində xeyli genişlənib: "İldən-ilə festivalda iştirak edən ölkələrin də, musiqi kollektivlərinin də sayı artmaqdadır. Bu il bu mötəbər musiqi bayramında Azərbaycanla yanaşı, ABŞ, Rusiya, Almaniya, İspaniya, Avstriya, Koreya Respublikası, Türkiyə, Braziliya, Hindistan və digər ölkələrdən tanınmış ifaçı və kollektivlər iştirak edəcəklər. Festival çərçivəsində Bakı ilə yanaşı, Şuşa, Gəncə və bir sıra şəhərlərdə açıq və qapalı məkanlarda konsertlər, tamaşalar, sərgilər, elmi konfrans və ustad dərsləri təqdim olunacaq.

Musiqişünas deyib ki, Üzeyir bəy Hacıbəylinin doğum gününün musiqi günü kimi qeyd olunması ənənəsini görkəmli bəstəkar və dirijor Niyazi qoyub.

Festival çərçivəsində təqdim olunan proqrama əsasən, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında, Kamera və Orqan Musiqisi Zalında, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında, Azərbaycan Bəstəkarlar İttifaqında, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında, bəstəkarın ev-muzeyində, Musiqi Mədəniyyəti Dövlət Muzeyində Üzeyir bəy Hacıbəylinin, Azərbaycan klassik musiqisinin digər nümayəndələrinin, dünyaşöhrətli bəstəkarların əsərləri yerli və xarici ölkələrin musiqiçilərinin ifasında musiqisevərlərə təqdim olunur.

Qonaqpərvər Azərbaycan xalqı bu il də bir çox dünyaca tanınmış musiqiçilərin yolunu səbirsizliklə gözləyir: "Ümumiyyətlə, Beynəlxalq Üzeyir bəy Hacıbəyli Festivalında xaricdən gələn musiqiçilərin çıxışları daim diqqət mərkəzində olub. Əminik ki, builki festivalda da iştirak edən xarici ifaçıların, musiqi kollektivlərinin çıxışları maraqla qarşılanıb, yaddaqalan olacaq".

---

Azərbaycan.- 2024.- 18 sentyabr (№203).- S.9.